**UOT 94 (479. 24)**
**https://doi.org/10.59849/2218-4783.2026.1.60**

# SÜRMƏLİ (İQDIR) BÖLGƏSİNDƏ SU TƏSƏRRÜFATI VƏ SUDAN İSTİFADƏNİN VƏZİYYƏTİ (XIX-XX ƏSRİN ƏVVƏLLƏRİ)

# WATER MANAGEMENT AND WATER USE IN THE SÜRMƏLI (IĞDIR) REGION ($19^{th}$-EARLY $20^{th}$ centuries)

**Könül ƏLİYEVA***

## XÜLASƏ

Rusiya işğalından dərhal sonra hakimiyyət nümayəndələri İrəvan əyalətinin bütün ərazilərindən, o cümlədən Sürməli (İqdır) bölgəsindən maksimum iqtisadi fayda əldə etmək üçün hərəkətə keçdilər. Bu bölgədə yaşayan əhalinin iqtisadi həyatı, təsərrüfat məşğuliyyəti araşdırıldı. Başlıca məşğuliyyət sahəsinin süni suvarmaya əsaslanan əkinçilik olması, rus məmurlarını mövcud irriqasiya sistemi, su ehtiyatlarından istifadə qaydaları ilə bağlı məlumatlar əsasında bu sahədə vəziyyəti nizama salmaq üçün addımlar atmağa vadar etdi. Təqdim edilən məqalədə Qərbi Azərbaycanın Sürməli (İqdır) bölgəsində XIX əsrin 30-cu illərindən XX əsrin ilk onilliklərinə qədərki dövrdə su təsərrüfatının vəziyyəti, suvarma suyundan istifadəni tənzimləmək tədbirləri və onun nəticələri araşdırılmışdır.

**Açar sözlər:** *Sürməli qəzası, irriqasiya sistemi, sudan istifadə qaydaları, mirab, su dairələri.*

## ABSTRACT

Immediately after the Russian conquest, the authorities took steps to maximize economic benefit from all territories of the Iravan province, including the Sürməli (Iğdır) region. The economic life and economic activities of the population in this region were investigated. The fact that the main occupation was agriculture based on artificial irrigation prompted Russian officials to take measures to regulate the situation in this field, drawing on data concerning the existing irrigation system and water use regulations. This article examines the state of water management in the Sürməli (Iğdır) region of Western Azerbaijan from the 1830s to the first decades of the 20th century, the measures taken to regulate irrigation water use, and their outcomes.

**Keywords:** *Sürməli district, irrigation system, water use regulations, miraab (water supervisor), water administrations.*

## GİRİŞ

Rusiya işğalı zamanı və sonrakı onilliklərdə Qərbi Azərbaycanda – tarixi İrəvan əyalətində, eləcə də onun tərkib hissəsi olan Sürməli (İqdır) bölgəsində əhalinin əsas məşğuliyyəti əkinçilik təsərrüfatı idi. Yerli azərbaycanlı əhalinin əsas dolanışıq mənbəyi yüzilliklər boyu taxılçılıq olmuş, buğda, arpa becərilmişdir. Araz düzənliyində, o cümlədən onun cənub-qərb hissəsi olan Sürməli düzündə əkinçilik süni suvarmaya əsaslanmış, əhali Araz çayından və onun qollarından çoxsaylı kanallar və arxlar çəkərək əkin yerlərini suvarmış, bol məhsul götürmüşdülər.

* Azərbaycan, AMEA Tarix İnstitutu, e-mail: konulqabilqizi@mail.ru
ORCİD: 0000-0001-9424-9293

Rusiya imperiyası tərəfindən işğal edildikdən sonra Azərbaycanın şimal hissəsində təsərrüfat həyatında baş verən dəyişikliklər, çar hakimiyyəti nümayəndələrinin bu yeni müstəmləkələrin təbii sərvətlərini istismar etmək, metropoliya üçün gərəkli məhsullar istehsalını təşkil etmək məqsədi ilə irəli sürdükləri layihələr, ticarət əkinçiliyinin müxtəlif sahələrinin inkişaf etdirilməsi tədbirləri, o cümlədən suvarma sistemləri, sudan istifadə qaydaları haqqında Azərbaycan tarixşünaslığında qiymətli tədqiqat əsərləri yazılmışdır. Bu baxımdan İ.A.Talıbzadənin monoqrafiyası [Talıbzadə, 1980] xüsusi qeyd edilməlidir. Lakin bu əsərdə XIX əsrdə və XX əsrin əvvəllərində yalnız Azərbaycanın Bakı və Yelizavetpol (Gəncə – K.Ə.) quberniyaları və qismən də Naxçıvan və Şərur-Dərələyəz qəzalarının su təsərrüfatı haqqında araşdırma aparılmışdır.

Müstəqilliyin bərpasından sonra, xüsusən də XXI əsrin əvvəllərindən etibarən Qərbi Azərbaycan – İrəvan quberniyası haqqında müxtəlif səpkili tədqiqatlar çoxalmışdır. Lakin bu tədqiqatlarda İrəvan quberniyasında siyasi vəziyyətə, etno-demoqrafik dəyişikliklərə, erməni qatı millətçilərinin yerli azərbaycanlı əhaliyə qarşı törətdikləri soyqırımları [Mahmudov, 2010; Нифталиев, 2017; Əliyeva, 2017, s. 327-333; Aliyeva, 2018, s. 2192-2196; Mustafa, 2025] kimi məsələlərə daha çox diqqət yetirilmişdir. Yalnız E.T.Qarayevin monoqrafiyasında [Qarayev, 2024] XIX əsrin ikinci yarısı və XX əsrin əvvəllərində Qərbi Azərbaycanın sosial-iqtisadi həyatına nisbətən geniş yer verilmişdir. Lakin bu əsərdə bütün Qərbi Azərbaycan regionu haqqında bəhs edildiyi üçün Sürməli bölgəsinin təsərrüfat həyatında baş verən hadisələrə yalnız ötəri toxunulmuşdur. E.K.Əliyevanın Şimali Azərbaycanda xanlıqlar dövründə əkinçilik və suvarma sistemindən bəhs edən əsərində [Əliyeva, 2017] də Sürməli mahalında suvarma sistemi haqqında çox qısa məlumat əks olunmuşdur. Təqdim edilən məqalədə Azərbaycan tarixşünaslığında ilk dəfə olaraq Sürməli qəzasının əkinçilik təsərrüfatının su ilə təmin edilməsi vəziyyəti və sudan istifadənin tənzimlənməsi məsələlərinin nisbətən geniş səpkidə araşdırılmasına cəhd göstərilmişdir.

## ƏSAS HİSSƏ

İrəvan quberniyasının başlıca əkinçilik bölgəsi olan Araz düzənliyinin (*Zaqafqaziya (Cənubi Qafqaz – K.Ə.) dəmir yolu idarəsi Kommersiya xidmətinin agenti R.Daniloviçin 1894-cü ildə hazırlayıb İdarə rəisinə təqdim etdiyi ticari araşdırmanın "İrəvan quberniyasının və Araz vadisinin coğrafi vəziyyəti" adlı bölməsində yazmışdır: "İrəvan quberniyasının cənub hissəsi Araz düzənliyi adlanır və eyni adlı çay boyunca 350 verst uzanır. Sürməli, Eçmiədzin (Üçmüəzzin – K.Ə.), İrəvan, Şərur-Dərələyəz və Naxçıvan qəzalarının Araz boyu hissəsi bu düzənliyə aiddir. Araz çayının İrəvan quberniyası ərazisinə daxil olduğu hissədə düzənlik kifayət qədər enlidir. Şimalda Alagöz dağı, cənubda Ağrı dağı arasında olan hissədə düzənliyin eni 35 verstə çatır. Araz düzənliyinin çaydan şimal hissəsi Sərdarabad düzü, çaydan cənub hissəsi isə Sürməli düzü adlanır")* [Данилович, 1897, c. 526]) bütün əkin sahələri süni suvarma sayəsində məhsul verirdi. Əkin sahələri və bağ-bostan yerləri Araz çayından və Kiçik Qafqaz dağlarının ətəklərindən başlayaraq ona tökülən qollardan çəkilən kanal və arxlar vasitəsi ilə suvarılırdı. Araza tökülən kiçik çaylardan o qədər kanal və arxlar çəkilmişdi ki, demək olar ki, onlardan axan bütün su əkin yerlərinin suvarılmasına sərf edilirdi. Hansı yerə bu və ya digər səbəbdən su çıxmırdısa, həmin ərazi heç bir həyat əlaməti olmayan səhra təsiri bağışlayırdı. Əksinə, hansı ərazi bol su ilə təmin olunurdusa, həmin yerin əhalisi daha imkanlı və zəngin sayılırdı. Bu baxımdan, Sürməli bölgəsinin əhalisi daha şanslı idi. Burada bütün düzənlik ərazinin ¾ hissəsi suvarılan əkin sahələri idi [Данилович, 1897, c. 521-803].

Araz çayının Sürməli qəzasından axan sağ qolları: Yuxarı, Orta və Aşağı Qarasu çayları başlanğıcını Böyük Ağrı dağının ətəklərindən götürür və dağın səthinə hopmuş suların yeraltı bulaqlar kimi onlara qovuşması ilə suyu artırdı. Bu çaylar düzənlik hissədə mailliyi az olduğu üçün ləng axır və daşqın zamanı ətraf yerlərdə bataqlıqlar yaranmasına səbəb olurdu. Bataqlıqlar qamışla əhatə olunurdu. Qamışlıqların da yanında yaxşı çəmənlik və biçənəklər var idi ki, onlardan da kürd tayfaları qışlaq kimi istifadə edirdilər. Yuxarı Qarasu çayı Sürməli bölgəsinin təsərrüfat həyatında mü-

hüm rol oynayırdı. Aşağı Qarasu çayı Rusiya ilə Qacarlar dövləti (Maku xanlığı istiqamətində) arasında sərhəd boyunca axıb Araza qovuşurdu [Хан-Агов, 1886, с. 226-456].

Araz boyunda süni suvarmanın bir növü də kəhriz vasitəsi ilə olan idi. Kəhriz qrunt sularının istifadəsi üçün qazılmış quyuları yerin altında tunellər vasitəsi ilə bir yerə toplayırdı. Daha sonra da həmin suyu torpağın üzərinə çıxararaq əkin yerini suvarırdılar. İrəvan quberniyasında kəhrizlər sistemi yalnız Naxçıvan qəzasında mövcud idi [Данилович, 1897, с. 561]. Kəhrizlər ayrı-ayrı kəndlərin əhalisi tərəfindən yaradılır, sonra da vaxtaşırı təmir edilir, təmizlənirdi. Bu kəhrizlər onları inşa edən həmin əhalinin ixtiyarında idi. Kəhrizin suyundan həmin kəndlərin camaatı öz bildiyi kimi istifadə edirdi. Təbii axan çay sularının əksinə olaraq kəhriz, su quyusu və s. ilə yer üzərinə çıxarılan sular həmin suvarma vasitəsinin inşasında iştirak edən torpaq sahiblərinin və kənd cəmiyyətlərinin xüsusi mülkiyyəti hesab olunurdu. Adətə görə, ayrı-ayrı şəxslər və kənd cəmiyyətləri tərəfindən çəkilən arxın suyundan heç bir kənar şəxsin və ya kənd cəmiyyətinin istifadə etməyə ixtiyarı yox idi. Arxın çəkilməsində iştirak edən kənd cəmiyyətinin üzvləri sərf olunan əməyə və vəsaitin miqdarına görə sudan istifadə etmək hüququ qazanırdılar. Çayda, arxda axan suyun qabağını kəsib, özünə çoxlu su payı götürmək və s. ciddi surətdə qadağan edilirdi [İsmayılov, 2007, s. 224].

Çaylar isə bütün bölgə əhalisinin istifadəsində idi və onun suyundan həmin hövzədə yaşayan insanlar tarixən qərarlaşmış qaydalara əsasən istifadə edirdilər. Çayların suyundan istifadə xalq adəti ilə nizama salınırdı. Bu adətə görə təbii axar sular əhalinin ümumi əmlakı – sərvəti hesab edilirdi və həmin sudan istifadə etməkdə dövlət və sahibkar kəndliləri eyni hüquqa malik idilər. Təbii sulardan bərabər istifadə qaydası bütün Şərq ölkələrində olduğu kimi, Azərbaycanda da sahil hüququnun olmaması ilə əlaqədar idi. Yəni çayın sahilinə yaxın olan kənd cəmiyyətləri və xüsusi sahibkarlar torpaqlarını suvarmaq üçün çayın sahilindən xeyli uzaq olanlarla eyni dərəcədə həmin sudan istifadə etmək hüququna malik idilər [İsmayılov, 2007, s. 224].

Kəhrizlərdən fərqli olaraq çayların suyu dəfələrlə çox idi və çay boyundakı bütün kəndlərə süni suvarma üçün yetirdi. Hər çayın hövzəsindəki kəndlər ayrıca mahal təşkil edirdilər. Buna səbəb Qərbi Azərbaycanda Araz düzənliyi ərazisində eyni çaydan suvarma üçün istifadə edən kəndlər qrupunun vahid su idarəsinə malik olması idi, həmin yaşayış məntəqələri qrupunun mahal adlanması da buradan qaynaqlanırdı. Araz düzənliyindəki yaşayış məntəqələrinin bu prinsiplə mahallara bölgüsü həmin ərazinin təbii şəraitinə tamamilə uyğun gəlirdi və çar hakimiyyəti nümayəndələrinin müəyyən etdikləri qəzaların inzibati sərhədlərindən daha məntiqli idi.

Mahallara bölgünün bir önəmli cəhəti də var idi ki, hər bir mahala yerləşdiyi çay vadisindəki kəndlərlə yanaşı, çayın başlanğıcını götürdüyü dağlıq ərazi və oradakı kəndlər də daxil edilmişdi. Araz çayının sol sahili boyunca qərbdən şərqə doğru Sərdarabad, Abaran, Zəngibasar, Gərnibasar, Vedibasar, Şərur və Naxçıvan mahalları, Arazın sağ sahili boyunda isə Parçi və Sürməli mahalları yerləşirdi [Данилович, 1897, с. 562, 566]. Hər mahal da ayrı-ayrı qruplarda birləşmiş kəndlərdən ibarət idi. Həmin kəndlər qrupu birlikdə çalışaraq çaydan kanal inşa edir, sonra da bu ümumi kanaldan hər kəndə arxlar çəkilirdi. Həmin arxlardan da öz növbəsində hər əkin sahəsinə daha kiçik arxlar çəkilirdi.

Əkin yerinin suvarılması iki cür olurdu. Bir üsul bütün sahənin su altında qalması idi. Bu üsul çəltik plantasiyalarında tətbiq edilirdi. Çəltik əkilən tarla bitkinin kökü boy atdığı bütün dövr ərzində suyun içində qalırdı. İkinci üsul suyun əkin sahəsinə kiçik arxla axıdılması vasitəsi ilə aparılırdı. Bu zaman bitkinin kökü olan hissə islanır, rütubəti özünə çəkirdi. Bu üsulla əkin yerləri bitkinin təbiətinə və torpağın xüsusiyyətinə uyğun olaraq müəyyən edilən fasilələrlə suvarılırdı.

Sürməli bölgəsində Araz və Qarasu çaylarına yaxın yerlərdə şoran torpaqlar da mövcud idi. Bu torpaqları İrandan həmin əraziyə köçürülmüş ermənilər əkinə yararlı hala salmaq üçün su ilə yuyurdular. Bu məqsədlə həmin torpağı yay mövsümündə suda batırır, sonrakı il isə arxlar qazaraq suyun axıb getməsinə şərait yaradırdılar. Bu üsul torpağın üst qatının duzdan təmizlənməsinə imkan verirdi. Üçüncü il həmin sahə şumlanır və yenidən suda batırılırdı ki, aşağı qatdakı duzlar da axıb getsin. Bu üsul artıq beşinci il həmin torpaq sahəsinin əkinə tam yararlı hala gəlməsinə səbəb olur-

du. Daha çox duzu olan torpaqlarda isə başqa üsul tətbiq edirdilər. Məsələn, İqdırın yaxınlığındakı çox duzlu əraziyə İrandan köçürülmüş erməni kəndlisi həmin torpağı 1 arşın (1 arşın 0,68 m-ə bərabərdir – K.Ə.) dərinlikdə qazaraq üst qatı götürüb kənara atmış, yerinə münbit torpaq gətirib tökmüşdü. Bundan sonra həmin yerdə salınmış bağ bol məhsul vermişdi [Хан-Агов, 1886, с. 232].

Azərbaycanlı əhali də şoran torpaqların yuyulmasından ayrılan selitranı toplayıb barıt istehsalı üçün istifadə edirdi. Kürdlər isə yaz yağışlarından sonra torpağın üzündə qalmış duz qatını toplayaraq karvan-karvan Qarsa və Aleksandropola sabun istehsalçılarına satmaq üçün göndərirdilər. Ermənilər də şoran yerlərdəki bitkiləri toplayır, ondan sabun bişirilməsi üçün potaş alırdılar.

Sürməli qəzasında XIX əsrin 60-cı illərində düzənliyi kəsib keçən Xan-Ağa arxı adlı böyük kanal çəkilməsi şoran torpaqların yuyulması üçün geniş imkanlar yaratmışdı. Məsələn, bu kanalın inşasından sonra şoran torpaqların əkinə yararlı hala salınması üçün yuyulmasında Daşburun kəndinin sakinləri fəal iştirak etməyə başlamışdılar. Əgər əvvəlki dövrdə yararlı torpaq çatışmadığına görə bu kənddə yaşayan 100-dən çox ailə başqa yerə köçürülmək üçün Rusiya hakimiyyəti nümayəndələrinə müraciət etmişdisə, XIX əsrin 80-ci illərinə kimi həmin kanalın suyu ilə o qədər torpağı şoranlıqdan arındırmışdılar ki, 150 ailəni təmin edəcək qədər yararlı torpağa malik olmuşdular [Хан-Агов, 1886, с. 232-233].

Araz çayından və onun qollarından su götürən əsas kanallar bir neçə sajen (1 sajen 1,8 m.-ə bərabərdir – K.Ə.) enində və bir arşından çox dərinlikdə qazılırdı. Kanal və arx çəkilərkən geodeziyadan və hidravlikadan hər hansı bir nəzəri hazırlığı olmayan yerli sakinlər çox sadə, lakin yüzilliklər boyu dəfələrlə sınaqdan çıxmış üsulları bacarıqla tətbiq edirdilər. Kanalın və ya arxın səthinin düzlüyünü və mailliyini su şırnağı və ya "taraz" adlı alət vasitəsilə təyin edirdilər. Kanalı çəkməzdən öncə, çayın müəyyən edilmiş yerindən nəzərdə tutduqları istiqamətdə kiçik arx qazır və çaydan oraya su buraxırdılar. Suyun hərəkəti normal olduğu təqdirdə həmin arxı genişləndirərək lazımi ölçüyə çatdırırdılar [Əliyeva, 2017, s. 135]. Həmin kanalların suyundan kəndlər, kənd daxilində də ayrı-ayrı təsərrüfat subyektləri növbə ilə istifadə edirdilər.

İrəvan xanlığının Rusiya tərəfindən işğalı ərəfəsində Sürməli mahalının ən böyük suvarma kanalı öz başlanğıcını Arazdan götürən Qul-Usub arxı idi [Шопен, 1852, с. 388]. Mahalın əksər kəndlərinin əhalisi əkinlərini suvarmaq üçün bu arxdan su götürürdü. Hər bir kəndin özünəməxsus bölüşdürücü arxı var idi və onlar əksər halda həmin yaşayış məntəqəsinin adı ilə adlanırdı: Sərbaz arxı, Zülfüqar arxı, Evcilər arxı, Qazançı arxı, Qızıl Zakir arxı, Ağ arx, Məmişgön arxı, Molla Məmməd arxı, Yaycı arxı, İqdır arxı, Baharlı arxı, Əlikəmərli arxı və s. [Шопен, 1852, с. 389].

Suyun kəndli təsərrüfatları arasındakı bölgüsü ya kameral təsvirdəki ailə siyahıları, ya da əkin yerlərinin sahələri əsasında aparılırdı. Sudan düzgün istifadəyə nəzarət etmək üçün hər mahalda bir *mirab* və kəndlərin nümayəndələrindən ibarət şura seçilirdi. Həmçinin hər bir kənddə də suyun təsərrüfatlar arasında düzgün bölgüsünə nəzarət edən su başçısı – *cuvar* fəaliyyət göstərirdi. Cuvarlar həm də öz kəndlərinin ərazisindən keçən kanalın və arxların vaxtında təmizlənməsinə, suyun düzgün sərf edilməsinə nəzarət edirdilər. Mirab və cuvar vəzifələrinə görə məvacib ödənirdi. Mirabın illik məvacibi – 800 rubl, şura üzvlərinin qazancı – 150-200 rubl idi. Cuvarların əmək haqqı məhsulla ödənirdi. Bəzi yerlərdə cuvarın məvacibi dəqiq müəyyən edilmişdi və hər ailə (həyət) öz payını ödəməklə bu məbləği kənd üzrə toplayıb verirdilər. Məsələn, Şərur mahalında miraba məvacib ödəmək üçün hər ailədən 0,4 rubl, Naxçıvan bölgəsində 0,2 rubl toplanırdı [Qarayev, 2024, s. 460]. Cuvar üçün yay mövsümündə 14 funt düyü, su nəzarətçiləri üçün gününə 0,5 rubl toplanırdı [Данилович, 1897, с. 563-564].

Rusiya imperiyası tərəfindən işğal edildikdən sonra Azərbaycanın digər bölgələrində olduğu kimi, İrəvan əyalətində də təsərrüfat həyatının araşdırılmasına, bu yerlərin iqtisadi imkanlarından maksimum yararlanmaq üçün addımlar atılmasına başlandı. Çar hakimiyyəti nümayəndələri İrəvan və Naxçıvan əyalətlərində (1849-cu ildən sonra İrəvan quberniyasında – K.Ə.) əkinçiliyin müxtəlif sahələrinin inkişaf etdirilməsi üçün çox vacib şərt olan suvarma sisteminin normal fəaliyyət göstər-

məsi, sudan istifadə qaydalarının tənzimlənməsi üçün səy göstərirdilər. Çarizm bu sahədə irəliləyişə nail olmaq üçün dəfələrlə müxtəlif komissiyalar yaratmış və ayrı-ayrı mütəxəssisləri yerlərə ezam etmişdi ki, mövcud çətinlikləri aradan qaldırsınlar və suvarma təsərrüfatında uzun müddətdən bəri davam edən tənəzzülə son qoysunlar.

Xüsusən XIX əsrin 80-ci illərində bütün Cənubi Qafqaz miqyasında əkinçilik təsərrüfatının müvəffəqiyyətlə inkişaf edib genişlənməsi və daha çox gəlir gətirən məhsullar becərilməsi üçün suvarma suyundan istifadənin qaydaya salınması böyük əhəmiyyətə malik idi. İrəvan quberniyasının 1884-cü il üzrə şərhində quberniya üzrə pambıq istehsalında həmin il baş verən geriləmənin, ümumiyyətlə regionda pambıqçılıq təsərrüfatlarının zəif inkişaf etməsinin mühüm səbəblərindən birinin irriqasiya sisteminin çox primitiv səviyyədə qalması ilə bağlı olduğu vurğulanmışdı. Suvarma suyu ilə bağlı problemlər yaşayan yerli sakinlər növbəti mövsümdə pambıq əkini sahələrini ixtisar etməyə məcbur qalırdı. Həmin mənbədə İrəvan quberniyası miqyasında pambıqçılığı inkişaf etdirmək üçün pambıqtəmizləmə zavodlarının daha keyfiyyətli qurğularla təchiz edilməsi ilə yanaşı, həm də irriqasiya sisteminin inkişaf etdirilməsinin zəruriliyi xüsusi qeyd olunmuşdu [Обзор Эриванской губернии за 1884 г.].

Bu məqsədlə verilmiş 3 dekabr 1890-cı il tarixli qanun üzərində xüsusi dayanmaq lazımdır. Maraqlıdır ki, çar III Aleksandrın imzaladığı həmin qanunda suvarma suyunun ölçü vahidi kimi, yerli azərbaycanlı əhalinin işlətdiyi "baş" ifadəsindən istifadə edilmiş, 1 baş suyun 1/400 kub sajenə bərabər olduğu və 25 litrə bölündüyü göstərilmişdir [ПСЗРИ, 1890, т. 10, с. 760-769].

3 dekabr 1890-cı il tarixli qanuna əsasən, İrəvan quberniyası 15 su dairəsinə bölündü. Biz həmin dairələrin hamısının adlarını qeyd etməyi zəruri sayırıq. Çünki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyinə həsr olunmuş yığıncaqda çıxışında xüsusi vurğulamışdır ki, "Bizim zəngin tariximiz əfsuslar olsun ki, Ermənistan tərəfindən, erməni diasporu tərəfindən uzun illər ərzində təhrif edilmişdir və bu istiqamətdə bizə qarşı aparılan təbliğat bu gün də dayanmır. Ona görə bunun qabağına biz öz həqiqətlərimizi qoymalıyıq" [Əliyev, 2025]. Prezidentimiz həmin çıxışında 20-ci əsrin əvvəllərində Rusiya xəritələrində "Sevan gölü" yox, "Göyçə gölü" yazıldığını qeyd etmiş və bu tipli araşdırmaların aparılmasını zəruri saymışdır: "biz bunu təbliğ etməliyik, tədqiq etməliyik. Daha çox elmi əsərlər, daha çox hətta kiçik həcmli bukletlər hazırlanmalıdır" [Əliyev, 2025].

Məhz bu baxımdan, İrəvan quberniyasındakı 15 su dairəsinin adları maraq doğurur. "İrəvan quberniyasının 1895-ci il üzrə şərhi"ndə yazılmışdır: "İrəvan quberniyası hələlik 15 su dairəsinə bölünmüşdür: İrəvan qəzasında 4 (Qırxbulaq, Zəngibasar, Qarnibasar və Vedibasar), Eçmiədzin (Üçmüəzzin – K.Ə.) qəzasında 3 (Abaran, Sərdarabad və Talın (*Talın – Eçmiədzin (Üçmüəzzin – K.Ə.) qəzasında 1908-ci ildə 382 nəfər tatar (azərbaycanlı – K.Ə.) yaşayan kənd // 16, стат. отд., с. 373*), Sürməli qəzasında 2 (Sürməli və Parçi (*Parçi – Şərur-Dərələyəz qəzasında 1908-ci ildə 153 nəfər tatar (azərbaycanlı – K.Ə.) yaşayan kənd //16, стат. отд., с. 345*), Aleksanropol və Şərur-Dərələyəz qəzalarının hərəsində 1, Naxçıvan qəzasında 4 (Xok (*Xok – Şərur-Dərələyəz qəzasında 1908-ci ildə1127 nəfər tatar (azərbaycanlı – K.Ə.) yaşayan kənd // 16, стат. отд., с. 399*), Naxçıvan, Əlincəçay, və Dostı (*Dostı – Naxçıvan qəzasında 1908-ci ildə 2 386 nəfər tatar (azərbaycanlı – K.Ə.) yaşayan kənd // 16, стат. отд., с. 249*) su dairəsi vardır" [Обзор Эриванской губернии за 1895 г., 1896, с. 4]. Göründüyü kimi, İrəvan quberniyasındakı bütün su dairəsi adları Azərbaycan dilindədir.

Yeni yaradılan su dairələrində mövcud su ehtiyatının araşdırılmasına, suvarılan torpaqlar və orada əkilən bitkilər haqqında məlumat toplanmasına, suvarma suyundan istifadə edənlərin siyahısının tutulmasına, bütün suvarma kanalları və arxlarının planlarının dəqiqləşdirilməsinə başlanmışdı. Bundan əlavə, su dairəsi məmurları suvarma suyu üstündə kəndlər arasındakı çoxillik mübahisələrin həll edilməsi istiqamətində səylərini artırmışdılar. Məsələn, Sürməli qəzasındakı su dairəsi məmurları 1895-ci ildə Pirli kanalının qaya uçqunundan təmizlənməsini təşkil etmiş, Şıxbəzənli,

Saraclı-Pirço və digər kəndləri sel sularından qorumaq üçün Xan-Ağa kanalından əlavə arx çəkilməsi layihəsini hazırlamışdılar [Обзор Эриванской губернии за 1895 г., 1896, c. 5].

Bu və digər tədbirlər suvarma suyundan istifadə edilməsində qismən də olsa qayda-qanun yaradılmasına imkan verdi, mirabların özbaşınalıqlarının qarşısını xeyli dərəcədə aldı. Bu da, öz növbəsində əkinçilik təsərrüfatının inkişafına müsbət təsir göstərdi.

## NƏTİCƏ

Çar Rusiyası tərəfindən 1890-cı ildə Cənubi Qafqazda Su əsasnaməsi qəbul edildikdən sonra, bütün regionda suvarma işində ali hakimiyyət mühəndis-hidravlikə keçdi. Mirab, cuvar, su nəzarətçiləri bilavasitə onun tabeliyində fəaliyyət göstərməli idi. Lakin bu qayda XIX əsrin 90-cı illərində yenicə tətbiq edilmişdi və hələ tam bərqərar olmamışdı. Qərbi Azərbaycanda, o cümlədən Sürməli qəzasında suvarma suyundan istifadə edilməsində keçmiş qaydalar qalmaqda davam edirdi və su idarəsi çox böyük səlahiyyətə malik idi. Mirab mahal miqyasında suyun yeganə sahibi kimi davranırdı [Данилович, 1897, c. 564].

Bunun da əsas səbəbi düzənlik bölgələrdəki əkin yerlərinin suvarma suyu ilə yetərincə təmin olunmaması idi. Yay mövsümündə çayların suyu azalır, bəziləri isə tamamilə quruyurdu. Suvarma suyu çatışmayan bölgələrdə əkinlər məhv olur, kəndlinin il boyu çəkdiyi zəhmət puça çıxır, ailəsi aclığa məruz qalırdı. Ona görə də əkini vaxtında suvarmaq həyati əhəmiyyət daşıyırdı. Elə bu səbəbdən də digər təsərrüfata axan suvarma suyunun oğurlanması, su üstə dava-dalaş, hətta ölümlə nəticələnən toqquşmalar tez-tez baş verirdi. Bu zaman çaylardan uzaqdakı kəndlər daha az şanslı idilər. Həmin kəndlərin əhalisi çaydan su götürüldüyü yerdən əkin sahələrinə çatana qədər bütün kanal boyu gözətçilər düzüb, ayıq-sayıq davranırdılar ki, kimsə onların tarlasına axan sudan özbaşına istifadə etməsin.

Bununla belə, hər il su çatışmazlığından əkin sahələrinin bir qismi məhv olurdu. Bunun da əsas səbəbləri mövcud irriqasiya sisteminin primitiv olması, kanal və arxların çəkilməsi zamanı texniki hesablamaların düzgün aparılmaması, həmçinin kanalların bilərəkdən çaya yaxın kəndlərdən aralı çəkilməsi nəticəsində məsafənin uzanması və nəticədə daha çox suyun torpağa hopması ilə əlaqədar suyun bir hissəsinin yolda itirilməsi idi. Bir çox hallarda isə qonşu kəndlər birləşib şərikli bir iri kanal çəkmək əvəzinə, yaxın məsafədə bir-birinə paralel kanallar inşa edirdilər ki, bu da əlavə su itkisinə gətirib çıxarırdı.

Bütövlükdə isə, XIX əsrin sonu – XX əsrin əvvəllərində su təsərrüfatında nizam-intizam yaradılması sahəsində atılan addımlar tədricən öz müsbət nəticəsini verirdi. Bəhs olunan dövrdə Sürməli qəzasında mövsüm ərzində çoxlu su tələb edən pambıq əkinlərinin sürətlə genişlənməsi bunun əyani göstəricisi idi. Suvarma suyu ilə bol təmin olunduqları üçün XIX əsrin 90-cı illərində Sürməli qəzasının düzənlik zolağındakı 58 kəndin hamısında pambıq plantasiyaları mövcud idi. 1895-ci ildə qəza üzrə 3 491 desyatin sahəyə pambıq çiyidi səpilmiş, mövsümün sonunda 101090 pud təmizlənmiş pambıq lifi – mahlıc əldə edilmişdi [Обзор Эриванской губернии за 1895 г., 1896, c. 2]. 1912-ci ildə isə 6427 desyatin sahəyə çiyid səpilmiş, 226373 pud mahlıc əldə edilmişdi [Обзор Эриванской губернии за 1912 г., 1913, c. 6].

Sürməli qəzasında bəhs olunan dövrdə həm də çəltik, bağ-bostan əkinlərində ciddi artım müşahidə edilirdi ki, bu da bütövlükdə regionda sudan istifadənin nə qədər böyük əhəmiyyətə malik olduğunu sübut edirdi.

## ƏDƏBİYYAT

Əliyeva, E.K. (2017). *Xanlıqlar dövründə Şimali Azərbaycanda əkinçilik və suvarma sistemi.* Turxan.

Əliyev, İ.H. (2025, 3 noyabr). *Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyinə həsr olunmuş yı-ğıncaqda çıxışı.* https://president.az/az/articles/view/70464 (müraciət tarixi 21.11.2025).

Əliyeva, K.Q. (2017). İğdır (Sürməli) bölgəsində erməni silahlı dəstələrinin müsəlman əhaliyə qarşı soyqırımları (1918-1920-ci illər). *Tarix və onun problemləri*, 1.

İsmayılov, M. (Red.). (2007). *Azərbaycan tarixi* (4-cü cild). Elm. https://lib.az/users/1/upload/files/Azerbaycan_tarixi_7_cildde%2C_cild_4.pdf

Qarayev, E.T. (2024). *Qərbi Azərbaycan XIX əsrin ikinci yarısı – XX yüzilliyin əvvəllərində (İrəvan quberniyasının materialları əsasında)*. Parlaq imzalar.

Mustafa, N. (2025). *Qərbi Azərbaycan: faktlar, sənədlər, reallıqlar*. Orxan NPM.

Mahmudov, Y. (Red.). (2010). *İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi*. Azərbaycan.

Talıbzadə, İ.A. (1980). *XIX əsr və XX əsrin əvvəllərində Azərbaycanda suvarma və sudan istifadə*. Elm.

Aliyeva, K.Q. (2018). İğdır (Sürmeli) bölgesi: Rusya işgalinin etnodemografiksel duruma etkisi. *I. International Iğdir congress on multidisciplinary studies, November 6-8. Congress book of full texts* (3d vol.). Iksad International Publishing House.

Высочайше утвержденные: I. Положение о пользовании водами для орошения земель в Закавказье и II. Правила для определения существующих прав пользования оросительною водою. *ПСЗРИ* (Третье Собрание, 10-й том, док. № 7255, 3 декабря 1890 г.) (1893). Санктпетербургъ.

Данилович, Р.И. и др. (1897). Аракская равнина (в пределах Эриванской губернии). Коммерческое обследование. *Район Тифлисско-Карсско-Эриванской железной дороги в экономическом и коммерческом отношениях*. Типография Я.И.Либермана.

Нифталиев, И.В. (2017). *Геноцид Азербайджанцев в Иреванской губернии* (1918-1920). Элм.

*Обзор Эриванской губернии за 1884 г. Приложение к Всеподданнейшему отчету о состоянии Эриванской губернии за 1884 г.* (1885). Типография Эриванского губернского правления. http://elib.shpl.ru/ru/nodes/49621-za-1884-god-1885 (müraciət tarixi 02.11.2025).

*Обзор Эриванской губернии за 1895 год (приложение к Всеподданнейшему отчету).* (1896). Типография-скоропечатня Р.К.Эдельсона. http://elib.shpl.ru/ru/nodes/49627-za-1895-god-1896 (müraciət tarixi 02.11.2025).

*Обзор Эриванской губернии за 1912 год*. (1913). Типография Эриванского губернского правления.

Хан-Агов, А.Е. (1886). Экономический быт государственных крестьян в Эчмиадзинском и Сурмалинском уездах Эриванской губернии. *Материалы для изучения экономического быта государственных крестьян Закавказского края* (3-й том, ч. 1). Типография А.А.Михельсона.

Шопен, И.И. (1852). Исторический памятник состояния Армянской области в эпоху её присоединения к Российской империи. СПб., 1232.

(təqdimat)

**Daxilolma tarixi: İlkin variant 26.01.2026**
**Son variant 24.02.2026**